https://doi.org/10.59849/3006-1342.2026.2.40
UOT 94(479.24)

*Samir Qasım oğlu Məhərrəmov*
*Sumqayıt Dövlət Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru, baş müəllim*
*E-mail: Maharramov.samir@sdu.edu.az*
*ORCID ID: 0000-0002-2544-0999*

# AZƏRBAYCAN SSR-DƏ İXTİSASLI KƏND TƏSƏRRÜFATI KADRLARININ HAZIRLANMASI SİYASƏTİ (1928–1937-Cİ İLLƏR)

*Məqalədə 1928–1937-ci illərdə Azərbaycanda kənd təsərrüfatı sahəsində ixtisaslı kadrların hazırlanması siyasəti tarixi aspektdən kompleks şəkildə araşdırılmışdır. Tədqiqatda göstərilir ki, sovet hakimiyyətinin həyata keçirdiyi aqrar islahatlar, kollektivləşmə siyasəti və kənd təsərrüfatının sosialist əsaslarla yenidən qurulması peşəkar və texniki biliklərə malik işçi qüvvəsinə olan tələbatı əhəmiyyətli dərəcədə artırmışdır. Bu tələbatın ödənilməsi məqsədilə respublikada müxtəlif ixtisas kursları, aqronom məntəqələri, texniki məktəblər və qısamüddətli təlim proqramları təşkil olunmuşdur.*

*Araşdırmada qeyd olunur ki, kənd təsərrüfatı sahəsində kadr hazırlığı siyasəti yalnız istehsal prosesinin səmərəliliyinin yüksəldilməsinə deyil, eyni zamanda kənd əhalisinin maariflənməsinə, savadsızlığın aradan qaldırılmasına və aqrotexniki biliklərin geniş yayılmasına da mühüm təsir göstərmişdir. Xüsusilə kənd gənclərinin və qadınların təhsil prosesinə cəlb olunması kənd yerlərində yeni sosial münasibətlərin formalaşmasına, ictimai fəallığın artmasına və kəndin sosial-mədəni simasının dəyişməsinə səbəb olmuşdur.*

*Məqalədə maşın-traktor stansiyalarının yaradılması, texniki vasitələrin kənd təsərrüfatına tətbiqi və aqrar sahədə mexanikləşdirmə prosesinin genişlənməsi fonunda ixtisaslı mütəxəssislərin hazırlanmasının mühüm rolu xüsusi vurğulanır. Bu proses aqrar istehsalın texniki əsaslarla yenidən qurulmasına, əmək məhsuldarlığının yüksəlməsinə və kənd təsərrüfatında yeni idarəetmə üsullarının tətbiqinə şərait yaratmışdır. Təhlillər göstərir ki, həyata keçirilən dövlət siyasəti nəticəsində kolxoz və sovxoz sisteminin təşkilati əsasları möhkəmlənmiş, aqrar sahədə iqtisadi göstəricilər yüksəlmiş və kənd təsərrüfatının modernləşdirilməsi sürətlənmişdir. Ümumilikdə, bu dövrdə həyata keçirilən kadr hazırlığı siyasəti Azərbaycanın aqrar inkişafında və kənd cəmiyyətinin sosial transformasiyasında mühüm rol oynamışdır.*

*Açar sözlər:* kənd təsərrüfatı, ixtisaslı kadrlar, kənd təsərrüfatı təhsili, sosial dəyişikliklər, aqrar inkişaf, əmək məhsuldarlığı

Azərbaycan sənayesinin bərpası və inkişafı ixtisaslı işçi qüvvəsinin hazırlanmasını tələb edirdi [1, s. 202]. Kəndin sosialistcəsinə yenidən qurulması illərində kütləvi ixtisaslı kənd təsərrüfatı kadrlarının hazırlanması məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. ÜKP(b) MK-nin 1929-cu il noyabr plenumunda qərara alınmışdı ki, “Sosializmin quruculuğu dövründə əsaslı dəyişikliklərin əksəriyyətini, eləcə də rəhbər kadrların seçilməsi prosesini kənddə olan zəhmətkeşlər özləri irəli sürməlidir və onların özləri bu rəhbər kadrlarla birlikdə texniki biliklərlə təmin olunması prosesini həyata keçirməli idilər. Bütün bunlar ixtisaslı işçi qüvvəsi ilə təmin olunması işində əsaslı dönüş yaradılmasını tələb edirdi” [4, s. 59].

Tədris ilində kənd təsərrüfatı kadrlarına olan ehtiyac üçün ali və orta təhsil məktəbləri ilə yanaşı kütləvi ixtisas verən kurslardan da istifadə edilirdi. Kurslar vasitəsi ilə kənd

təsərrüfatında fəaliyyət göstərmək üçün kolxoz sədrləri, ferma rəhbərləri, həsabdarlar, traktorçular, suvarma işçiləri hazırlanırdı [5, s. 98].

Respublikada kütləvi ixtisaslı kadrlar hazırlanmasının genişlənməsi Azərbaycan VKP(b) MK-nın 1929-cu il mart qərarından sonra əhəmiyyətli oldu. Qərarda deyilirdi: "1929–1930-cu illər üçün bütün birinci-ikinci dərəcəli məktəblərdə ixtisaslı kənd təsərrüfatı işçilərinə verən kurslar təşkil etmək, kənd müəllimləri üçün aqronomiya üzrə axşam dərsləri, kənd təsərrüfatı sahəsində işləyənlər üçün isə xüsusi ixtisas kursları açmaq vacibdir" [3, s. 178]. Qərardan irəli gələrək aqrotexniki bilikləri öyrənmək üçün 9000 nəfər üçün 5 həftəlik kurs, 9000 nəfər yoxsul və orta hallı gənc üçün 12 illik məktəb, 4500 nəfər pambıqçı kolxozçu üçün yaylıq kurs açılmışdı [9, s. 105].

1929-cu ilin oktyabrında Azərbaycan SSR Dövlət Plan Komissiyasının təşəbbüsü ilə respublikada kənd təsərrüfatı təhsili məsələsinə dair müşavirə çağırıldı. Müşavirə "Kənd təsərrüfatı məktəblərinin hazırkı vəziyyəti və onların inkişafı yönündə qurulması haqqında" xüsusi müzakirələr həyata keçirdi [3, s. 106].

Müşavirə kütləvi kənd təsərrüfatı kadrları hazırlanmasını genişləndirmək üçün kəndlərdə olan beşillik məktəblərdən kəndli uşaqlarına kənd təsərrüfatı təhsili vermək üçün məktəblər qurmağı, onların arasında kənd təsərrüfatında işləməyin qaydalarını təbliğ etməyi, aqronomiya biliyi verən yeddiillik məktəb və 2–3 illik sənət məktəbləri xətti ilə təsərrüfat işçilərinin biliyini artırmaq və həmin məktəblərdə kənd təsərrüfatına aid dərslərin çoxaldılmasını, ümumilikdə kəndli-kəndlər məktəbləri şəbəkəsinin genişləndirilməsini, kənd təsərrüfatında işləyən fəhlələr birliyi, xüsusi ixtisas kursları açmağı tələb etdi [10, s. 67].

1929-cu ildən başlayaraq kütləvi kurslar şəbəkəsi genişləndirildi. Yuxarı kursların kütləvi kənd təsərrüfatı üzrə ixtisaslı kadrların hazırlanması işində böyük əhəmiyyəti oldu. 1929-cu ildə aqronom köməkçiləri və briqadir hazırlanması üçün 15 günlük kurslarda 10000 nəfər, pambıqçılar hazırlanması üçün 15 günlük kurslarda 6000 nəfər, kənd fəhlələri arasında savadsızlığı ləğv edən yeddi günlük kurslarda 10000 nəfər, ümumilikdə bütün kurslarda 140000 nəfər təhsil aldı. Kurslara 107800 manat vəsait sərf edilmişdi [6].

Azərbaycan ÜKP(b) MK kənd təsərrüfatında ixtisaslı kadrlara olan ehtiyacı nəzərə alaraq 1930-cu il mayın 17-də respublikada kütləvi kurslar haqqında yeni qərar qəbul etdi. Qərarda göstərilirdi ki, kənd təsərrüfatı üçün aqronomlar və başqa kütləvi ixtisaslı kadrlar hazırlayan kursların əksəriyyəti kənd yerində təşkil edilsin. Bununla əlaqədar olaraq 1930-cu ildə Mərdəkan, Ağdaş, Quba və s. rayonlarda kurslar açıldı.

Azərbaycan kəndi üçün kadr hazırlığında partiya-siyasi məktəbləri xüsusi yer tuturdu. Onların qarşısında duran əsas vəzifə kolxoz, sovxoz və MTS-lər üçün siyasi cəhətdən səriştəli rəhbər kadrlar hazırlamaq idi [15]. İxtisaslı kadrların hazırlanması respublikada maşın-traktor stansiyalarının (MTS) genişləndirilməsinə səbəb oldu. Maşın-traktor stansiyalarında işləmək üçün xüsusi mexanizator, traktorçu və kombaynçı kursları təşkil edilirdi. Kənd təsərrüfatının texniki əsaslarla yenidən qurulmasında həmin kurslar xüsusi rol oynayırdılar. Kurslarda iştirak edənlər istehsalat təcrübəsi qazanmaq üçün kənd təsərrüfatı texnikasının quruluşu, idarə olunması və texniki qulluq qaydaları ilə tanış olur, praktiki məşğələlər keçirdilər. Texnikanın kənd təsərrüfatına tətbiqi əl əməyinin həcminin azalmasına səbəb oldu. Bu isə əmək məhsuldarlığının daha da yüksəldilməsində mühüm rol oynadı. Maşın-traktor stansiyalarının fəaliyyəti kolxoz və sovxozların maddi-texniki bazasının möhkəmləndirilməsinə şərait yaratdı. Traktor və kombaynların istifadəsi əkin və məhsul yığımı prosesinin sürətlənməsinə imkan yaradırdı. Aqrar sahədə texnoloji yenilikləri tətbiq edən ixtisaslı mütəxəssislərin hazırlanması kənd təsərrüfatında yeni istehsal münasibətlərinin formalaşmasına səbəb oldu. Bu isə sektorun daha da müasirləşməsi və inkişafı üçün zəmin yaradırdı. Həmçinin, 1930-cu illərin ortalarında respublikanın əksər regionlarında fəaliyyət göstərən MTS-lər mexanikləşdirmə prosesinin əsas mərkəzi rolunu oynayırdı.

1929-cu ildə dairə və qəzalarda yoxsul və ortabab kəndlilər üçün 900 nəfər üçün yeddi günlük kombaynist kursu, səpin işləri üçün 250 nəfərlik 5 günlük kurs, tütün və komsomol briqadaları üçün 360 nəfərlik 4 günlük kurs, kolxozlarda çəyirçəkli səpin işçiləri üçün isə 4500 nəfərlik 15 günlük kurslar təşkil edildi [4, s. 75].

Kursların təşkili və dərslərin keçirilməsində Azərbaycan Kənd Təsərrüfatı İnstitutu kollektivinin böyük köməyi olmuşdur. Bakı şəhərindən 120 nəfər aqronom və institutdan xeyli sayda mütəxəssis kənd təsərrüfatında texnikanın yayılması və aqrotexniki yenilikləri kolxozçu kəndlilərə öyrətmək məqsədilə göndərilmişdir.

1929-cu ildə Respublikanın ayrı-ayrı kəndlərində 50 aqronom məntəqəsi təşkil olundu. Onlardan 5-i Dağlıq Qarabağ Muxtar Vilayətində, 4-ü Naxçıvan MSSR-də, qalanları isə müxtəlif rayonlarda idi. Hər aqronom məntəqəsində təxminən 20 min hektar əkin sahəsi və 6500 təsərrüfat var idi. Aqronom məntəqələri nümunə əkinləri təşkil edir, mühazirə və müsahibələr keçirir, kəndlilər üçün toxum təmizlənməsi və kənd təsərrüfatı maşınlarının verilməsi işində köməklik göstərirdilər [10, s. 68].

Əgər 1929-cu ildə aqronom məntəqələrinin köməyi ilə kənd təsərrüfatına 1400-ə qədər məsləhət verilmiş, 2200 hektar yer əkilmiş və 2400 mühazirə və müsahibə keçirilmişdirsə, 1929–1930-cu illərdə məsləhətlərin sayı 2750-yə, mühazirə və müsahibələrin sayı 3000-ə çatmışdır [9, s. 37].

Birinci beşillikdə respublikanın hər dairəsində bir aqronom məntəqəsi təşkil olunması və ümumi sayının 110-a çatdırılması nəzərdə tutulurdu.

Kolxozçu kəndlilərin iqtisadi birliyini artırmaq məqsədilə kütləvi ixtisas məktəblərinə və kurslara diqqət artırıldı. 1930-cu ilin yazında kolxozçu kəndlilərə aqronomik bilik vermək məqsədilə 9000 nəfəri əhatə edən 6 günlük kurs açıldı, yoxsul və ortabab kəndlilər üçün isə 9000 nəfəri əhatə edən 3 günlük kurs-konfrans təşkil edildi. Pambıqçılıq üzrə aqrotexniki qulluğu həyata keçirmək məqsədi ilə 4500 nəfəri əhatə edən bir aylıq kurslar açıldı.

1930-cu illərdə kənd təsərrüfatı sahəsində aparılan kadr hazırlığı siyasəti istehsalın artırılmasına səbəb oldu. Kadr hazırlığı siyasəti kənd əhalisinin sosial-mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynadı. Xüsusilə kənd gənclərinin kurslara, texniki məktəblərə və aqrotexniki təlimlərə cəlb olunması nəticəsində kəndlərdə savadlı və texniki biliklərə malik olan yeni nəsil formalaşmağa başlamışdı. Bu dövrdə həyata keçirilən əsas tədbirlərdən biri də kəndlilər arasında savadsızlığın aradan qaldırılması, yeni əmək vərdişlərinin mənimsədilməsi və müasir kənd təsərrüfatı üsullarının tətbiqi idi. Açılan kurslarda kənd təsərrüfatı texnikasından istifadə, torpağın düzgün becərilməsi, məhsuldarlığın artırılması, suvarma sistemlərinin təşkili və heyvandarlığın inkişaf etdirilməsi kimi məsələlər öyrədilirdi.

Kadr hazırlığı siyasəti kənd yerlərində ictimai fəallığın artmasına da təsir göstərmişdi. Təhsil alan kənd gəncləri sonradan kolxoz və sovxozlarda briqadir, ferma rəhbəri, traktorçu və aqrotexnik kimi fəaliyyət göstərərək kənd təsərrüfatının inkişafında mühüm rol oynayırdılar. Nəticədə kənd təsərrüfatında müasir idarəetmə üsulları tətbiq olunur, istehsal prosesi daha sistemli təşkil edilirdi. Bununla yanaşı, kəndlərdə mədəni-maarif tədbirlərinin artması, kitabxana və qiraətxanaların açılması əhalinin dünyagörüşünün inkişafına müsbət təsir göstərirdi. 1931-ci il yanvarın 20-də ÜİK(b)P MK "Kolxoz təşkilatlarının möhkəmləndirilməsi və yaz əkin kompaniyasına hazırlıqla əlaqədar iş və təbliğat işlərini genişləndirmək" haqqında qərar qəbul etdi. Qərarda qeyd olunurdu: "Qısa müddətli kurslar təşkil etmək yolu ilə müşavirələr, konfranslar keçirməklə kəndlərdə kütləvi fəalların gücü ilə iş aparmaq lazımdır. Kəndlilər və kolxozçular arasında kütləvi işi genişləndirmək və onlarla əlaqəni möhkəmləndirmək lazımdır" [14, s. 65]

ÜK(b)P MK-nın həmin qərarından sonra Azərbaycanda kütləvi ixtisas kurslarının sayı artdı. Üç aylıq və bir illik kurslar təşkil edilməyə başlandı. Kurslara seçilən kəndlilər və kolxozçular kütləvi təbliğat və aqronomik sahədə təcrübə qazandılar: 160 nəfərlik 6 aylıq

kurs, pambıq sortları hazırlamaq sahəsində 124 nəfərlik 2 aylıq kurs, traktorçular sahəsində 50 nəfərlik iki aylıq kurs, Gəncə yaxınlığında sovxozda işləmək üçün əlavə 150 nəfərlik bir illik traktorçuluq kursu, Kəlbəcərdə taxılçılıq sahəsində 200 nəfərlik iki aylıq kurs açıldı [11]. Kursların təşkili və keçirilməsi üçün 1930–1931-ci illərdə 1021, 913 manat vəsait ayrılmışdı [4, s. 89].

1931-ci il yanvarın 1-nə qədər respublikanın rayon və kolxozlarında 64 yerdə qısa müddətli kurslar açılmış, 4015 nəfər aqrotexniki biliklər üzrə hazırlanmışdır. 1931-ci ilin sonuna qədər təşkil edilmiş kurslar, mühazirələr və söhbətlər vasitəsilə 25 min nəfər adam öz aqronomik bilik səviyyəsini artırmışdır [10, s. 77].

1931-ci ilin sonuna qədər təşkil edilmiş kurslar, mühazirələr və söhbətlər vasitəsilə 25 min nəfər adam öz aqrotexniki bilik səviyyəsini artırmışdır. Aqronomik və zootexnik biliklərin kənd təsərrüfatına tətbiqi edilməsində şəhərdə hazırlanmış kənd kadrlarının kütləvi şəkildə kənd təsərrüfatına göndərilməsi mühüm əhəmiyyət daşıyırdı. 1930-cu ilin axırından 1931-ci ilin dekabrına qədər Bakıda bir illik kolxoz məktəbi xətti ilə 114 nəfər kolxozçu hazırlanıb kəndə göndərilmişdi.

Respublikada kollektivləşmə sahəsində yol verilən səhvləri düzəltmək, yoxsullarla ortabablar arasında ittifaqı möhkəmlətmək, kolxozların təşkilat və təsərrüfat cəhətdən möhkəmləndirilməsi vəzifələrini həyata keçirmək üçün xeyli sayda əlavə kadrların hazırlanması tələb olunurdu [4]. Birinci beşillik dövründə respublikada bu göstərilən vəzifələrin həyata keçirilməsi sahəsində çox işlər görüldü. Respublikanın rayonlarında, Bakı və Gəncədə kolxoz və sovxoz kadrlarının aqrotexniki bilik səviyyələrini artıran, kolxozçu kəndliləri savadlandıran çoxlu kurslar açıldı. Həmin kurslarda orta təhsilli, natamam orta təhsilli və az savadlı kəndlilər aqrotexniki yenilikləri öyrənirdilər [5, s. 110].

Kütləvi kənd təsərrüfatı kurslarında təhsil alan şəxslər yalnız nəzəri bilik almırdılar. Bununla yanaşı onlar təcrübələrini artırmaq məqsədi ilə praktiki məşğələlər də keçirdilər. Tədris prosesində qarşıya qoyulan əsas məqsədlər torpağın becərilməsi, məhsuldarlığın artırılması, əkin sahələrinin düzgün bölüşdürülməsi və kənd təsərrüfatı texnikasından istifadə qaydalarının öyrədilməsindən ibarət idi. Kurs iştirakçıları traktor, kombayn və digər aqrar texnikaların necə işlədiyini öyrənir, praktiki olaraq onlardan istifadə etmək bacarıqları qazanırdılar. Həmçinin, toxumların seçilməsi, gübrələmə üsulları, bitkilərin xəstəliklərdən və zərərvericilərdən qorunması, eləcə də suvarma sistemlərinin qurulması kimi vacib aqrotexniki məsələlər də kurs iştirakçılarına dərindən öyrədilirdi.

Kənd və kəndli məsələsi sosializmin xərcinə həll edilməmişdir. ÜK(b)P MK-nın və həmçinin 1933-cü il birləşmiş yanvar plenumu birinci beşilliyə yekun vuraraq partiya təşkilatlarının nəzəri təcrübələrini, kənd təsərrüfatının sosializm əsasları üzrə inkişaf etməsinin yollarını göstərdi. Plenumun kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu vəzifələr kadr hazırlığının ciddi artırılmasını tələb edirdi. 1933-cü ilin yanvarında Zaqafqaziya Ölkə Komitəsinin 1933-cü ilin yazında kənd təsərrüfatı kommunası dövründə kütləvi şəkildə kadrlar hazırlamaq haqqında qərarı da bununla bağlı idi [9, s. 110].

İlk dövrlərdə yeni kadrların hazırlanmasına və sosializmə lazımı fikir verilməmiş, qısa müddətli 2, 3 və 5 günlük kurslar, seminarlar az təşkil edilmiş, açılmış kurslar xüsusi kadrlarla vaxtlı-vaxtında təmin edilməmiş, dərs vəsaiti, dərs proqramı və metodik göstərişlər vaxtında çap etdirilməmişdir. Ona görə də Zaqafqaziya Ölkə Komitəsinin qərarına əsasən, kənd təsərrüfatı sahəsində kadrların hazırlanması işi daha çox diqqət verilərək və onların sayının çoxalması zəruriliyi göstərilmişdir [8].

Beləliklə, 1933-cü ildə Zaqafqaziya respublikalarında kütləvi kurslar şəbəkəsi ilə 33 min nəfər kadr hazırlanmalı idi. Bu kadrların 15 mini Azərbaycan SSR-də hazırlanmalı idi. Həmin kursların təşkili üçün 455 min manat pul ayrılmışdı. 1933-cü ildə kənd təsərrüfatının

müxtəlif sahələri üzrə 1785 nəfər orta ixtisaslı və 9469 nəfər kütləvi ixtisaslı kadr hazırlanması nəzərdə tutulmuşdur.

1935–1937-ci illərdə xüsusi diqqət ayrılan sahələrdən biri də kənd təsərrüfatı üzrə ixtisaslı qadın kadrların hazırlanmasından ibarət idi. Qadınların kənd təsərrüfatında rolunun artmasına səbəb onların aqrotexniki kurslara cəlb olunması olmuşdu. Bir çox qadınlar briqadir, ferma müdiri, pambıqçı və zootexnik kimi vəzifələrdə fəaliyyət göstərməyə başladılar. Bu isə kənd yerlərində qadınların ictimai fəallığının yüksəlməsinə təsir etmişdi.

Həmin dövrdə qadınların kənd təsərrüfatı sahəsində ixtisaslı kadr kimi hazırlanması onların ictimai istehsalata daha fəal şəkildə qoşulmasına imkan verirdi. Aqrotexniki kurslarda qadınlara pambıqçılıq, heyvandarlıq, quşçuluq, bağçılıq və kənd təsərrüfatı texnikasından istifadə qaydaları öyrədilirdi. Təlim keçmiş qadınlar sonradan kolxoz və sovxozlarda mühüm vəzifələrdə fəaliyyət göstərməyə başladılar. Qadınların təhsil alması və ictimai proseslərə cəlb olunması onların cəmiyyətdəki nüfuzunun artmasına, eləcə də ailədə və ictimai həyatdakı mövqelərinin möhkəmlənməsinə səbəb olurdu. Beləliklə, qadın kadrların hazırlanması həm kənd təsərrüfatının inkişafına, həm də kənd yerlərində sosial-mədəni dəyişikliklərin sürətlənməsinə mühüm təsir göstərmişdir.

Kütləvi kənd təsərrüfatı kadrlarının hazırlanması və ixtisaslarının artırılması ilə yaxşılaşması 1933-cü ildə respublikada kənd təsərrüfatı "kütlənin təşəbbüsünün artırılması" şüarı ilə həyata keçirilmiş və onun mühüm nəticəsi olmuşdur. Respublika üzrə 1933-cü ildə 132,9 min ton pambıq tədarük olunmuşdur [9, s. 104]. İkinci beşillik dövrdə kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması kolxozların yeni texnika ilə təchiz edilməsi, xeyli sayda ixtisaslı kadrların hazırlanması nəticəsində kənd təsərrüfatının inkişafı sahəsində çoxlu nailiyyətlər əldə edildi, kəndin mədəni siması dəyişdi [6].

1937-ci ildə Azərbaycanda bütün taxıl məhsulunun 78,9 faizi taxıl yığan maşınların gücü ilə toplanırdı. Kolxozların iqtisadi gücü xeyli artmışdı. 1932-ci ilə 57,7 milyon manata qarşı, 1937-ci ildə 456,6 milyon manata çatdı. Orta hesabla hər bir kolxozun gəliri ildə 6 dəfə, hər bir kolxozçu həyatinə düşən pul 3,36 dəfə, hər bir əmək gününə düşən pul 3,7 dəfə artmış, hər bir təsərrüfat günlərinə düşən əmək günlərinin sayı 2,2 dəfə çoxalmışdı. Göstərilən illərdə kolxozçu kəndlilər və içərilərindən rəhbərlər və sosialist təsərrüfat işçiləri, MTS direktorları, kolxoz sədrləri, təsərrüfat briqadirləri və s. yetişdirdilər. Belə qısamüddətli kütləvi kurslar vasitəsilə hazırlanan kənd təsərrüfatı kadrları kənddə sosializm quruculuğunun əsl təşkilatçıları oldular [15].

1928–1937-ci illərdə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də Azərbaycanda kənd təsərrüfatı üzrə kütləvi ixtisaslı kadrların hazırlanması idi. Həmin dövrdə yaradılmış kurslar, aqronom məntəqələri, texniki məktəblər və praktik təlim sistemi kənd təsərrüfatının inkişafında mühüm rol oynamışdır. Bununla da respublikada aqrar sahənin müasirləşdirilməsi prosesi daha da sürətləndirmişdir. Kənd təsərrüfatında yenidənqurma tədbirləri aparılmışdır. Bunun nəticəsində minlərlə kəndli aqrotexniki biliklər sahəsində yüksək biliyə malik olmuş, kənd təsərrüfatı texnikasından istifadə bacarıqlarına yiyələnmişdir. Bütün bu bacarıqlar nəticəsində ixtisaslı kadrlar istehsalatın müxtəlif sahələrində fəaliyyət göstərməyə başlamışdılar.

Beləliklə, ixtisaslı kadrların hazırlanması kolxoz və sovxozların təşkilati cəhətdən möhkəmlənməsinə səbəb oldu. Bu möhkəmlənmə əmək məhsuldarlığının yüksəlməsinə və kənd təsərrüfatında yeni texnologiyaların tətbiqinə şərait yaratdı. Kənd yerlərində istehsal prosesinin daha səmərəli təşkil olunmasında aqronomlar, zootexniklər, traktorçular, kombaynçılar və digər kənd təsərrüfatı mütəxəssisləri yaxından iştirak edirlər. Bununla yanaşı, həyata keçirilən tədbirlər kənd əhalisinin savad səviyyəsinin yüksəlməsinə səbəb oldu. Kənd əhalisinin savad səviyyəsinin yüksəlməsi sosial fəallığın artmasına və kəndin mədəni simasının dəyişməsində mühüm rol oynadı.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı, "Elm", 2008, 568 s.
2. Abbasov H. Azərbaycan kənd təsərrüfatının inkişaf mərhələləri (1920–1940). Bakı, "Elm və Təhsil", 2015, 398 s.
3. Əhmədov M. Kənd təsərrüfatı təhsili və maarifçilik hərəkatı (1920–1940). Bakı, Azərnəşr, 1989, 267 s.
4. Əlimirzəyev X. Azərbaycan SSR-də kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması (1920–1940). Bakı, "Elm", 1982, 189 s.
5. Əliyev R. Azərbaycan kənd təsərrüfatı kadrlarının formalaşması tarixi. Bakı, 1978, 158 s.
6. "Bakinski raboçiy", 1930, №42.
7. "Kommunist" qəzeti, 1931, №18.
8. "Kommunist" qəzeti, 1935, №41.
9. Məmmədov S. Azərbaycan kolxoz quruculuğunda ixtisaslı kadrların rolu. Bakı: Təhsil, 1981, 205 s.
10. Mirzəyev Ə. Azərbaycan SSR-də kollektivləşmə və kənd təsərrüfatı kadrları məsələsi (1929–1933). Bakı, "Elm", 1983, 322 s.
11. Qasımova L. Sovet dövründə aqrar islahatlar və kənd təsərrüfatı inkişafı. Bakı, "Nurlan", 2007, 376 s.
12. "Şərq qapısı" qəzeti, 1930, №15.
13. "Yeni Yol" qəzeti, 1929, №59.
14. "Zaqafqaziya Ölkə Komitəsinin qərarları toplusu". Tiflis, 1933, №7.
15. https://aak.gov.az/upload/dissertasion/tarix/Avtoreferat_%C4%B0lqar_Nift%C9%99liyev_AZ.pdf

УДК 94(479.24)

*Самир Гасым оглы Махаррамов*
*Сумгаитский Государственный Университет*

## ПОЛИТИКА ПОДГОТОВКИ СПЕЦИАЛИЗИРОВАННЫХ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ КАДРОВ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1928–1937 гг.)

### *РЕЗЮМЕ*

*Ключевые слова:* сельское хозяйство, квалифицированные кадры, сельскохозяйственное образование, социальные изменения, аграрное развитие, производительность труда

В статье комплексно исследуется политика подготовки специализированных сельскохозяйственных кадров в Азербайджанской ССР в 1928–1937 годах с исторической точки зрения. В исследовании показано, что аграрные реформы, политика коллективизации и перестройка сельского хозяйства на социалистических принципах значительно повысили потребность в профессиональной и технически квалифицированной рабочей силе. Для удовлетворения этой потребности в республике были организованы различные профессиональные курсы, агрономические пункты, технические школы и краткосрочные программы обучения.

В работе отмечается, что политика подготовки кадров в сельском хозяйстве способствовала не только повышению эффективности производства, но и росту уровня грамотности сельского населения, ликвидации неграмотности и распространению

агротехнических знаний. Особенно важным стало вовлечение сельской молодежи и женщин в образовательный процесс, что привело к формированию новых социальных отношений, росту общественной активности и изменению социально-культурного облика села.

В статье особо подчеркивается важная роль создания машинно-тракторных станций, внедрения технических новшеств в сельское хозяйство и подготовки квалифицированных специалистов в процессе механизации. Этот процесс создал условия для технической модернизации сельскохозяйственного производства, повышения производительности труда и внедрения новых методов управления. Анализ показывает, что в результате проводимой государственной политики были укреплены организационные основы колхозов и совхозов, улучшены экономические показатели аграрного сектора и ускорена модернизация сельского хозяйства. В целом политика подготовки кадров, проводимая в этот период, сыграла важную роль в аграрном развитии Азербайджана и социальной трансформации сельского общества.

UDC 94(479.24)

*Samir Gasim Maharramov*
*Sumgayit State University*

POLICY OF TRAINING SPECIALIZED AGRICULTURAL PERSONNEL
IN THE AZERBAIJAN SSR (1928–1937)
*SUMMARY*

*Keywords:* agriculture, qualified personnel, agricultural education, social changes, agrarian development, labor productivity

The article comprehensively examines the policy of training specialized agricultural personnel in the Azerbaijan SSR during 1928–1937 from a historical perspective. The study shows that agrarian reforms, collectivization policies, and the reorganization of agriculture on socialist principles significantly increased the demand for a professional and technically skilled workforce. In order to meet this demand, various vocational courses, agronomic stations, technical schools, and short-term training programs were organized across the republic.The research notes that the personnel training policy in agriculture contributed not only to improving production efficiency but also to raising the literacy level of the rural population, eliminating illiteracy, and expanding agro-technical knowledge. In particular, the involvement of rural youth and women in the educational process led to the formation of new social relations in rural areas, increased public engagement, and changes in the socio-cultural image of the countryside.

The article especially emphasizes the important role of the establishment of machine-tractor stations, the application of technical innovations, and the training of qualified specialists in the process of mechanization. This process created conditions for the technical modernization of agricultural production, increased labor productivity, and the introduction of new management methods. The analysis demonstrates that as a result of state policy, the organizational foundations of collective and state farms were strengthened, economic indicators in the agrarian sector improved, and the modernization of agriculture accelerated. Overall, the personnel training policy implemented during this period played a significant role in the agrarian development of Azerbaijan and in the social transformation of rural society.

***Daxil oldu: 12.06.2026-cı il***